ID: [redacted]

[redacted]

Azərbaycan Respublikası adından

**Q Ə T N A M Ə**

Bakı şəhəri İş № e-[redacted]2025 [redacted].2025-ci il

**BAKI ŞƏHƏRİ XƏTAİ RAYON MƏHKƏMƏSİ**

Hakim Həsənova Aygün Namiq qızının sədrliyi,
Quliyeva Nərmin İsmayıl qızının katibliyi,
İddiaçının etibarnamə üzrə nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlunun,
Cavabdeh [redacted]nın,
Tərcüməçi Nəcəfova Evelina Ramid qızının iştirakları ilə,

İddiaçı [redacted] oğlunun cavabdeh [redacted]ya qarşı "nikahın pozulması" tələbinə dair iddia ərizəsi üzrə mülki işə açıq məhkəmə iclasında baxaraq

**müəyyən etdi:**

**İddia ərizəsi və onun dəlilləri:**

İddiaçı [redacted] oğlunun etibarnamə üzrə nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlu cavabdeh [redacted]ya qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, iddiaçı [redacted] oğlu ilə cavabdeh [redacted] arasında 17 noyabr 2007-ci il tarixdə Xətai Rayon Qeydiyyat Şöbəsində bağlanaraq, 1696 №-li akt qeydi tərtib olunmuş nikahın pozulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

İddia tələbi onunla əsaslandırılmışdır ki, cavabdeh [redacted] ilə aralarında olan nikah 17 noyabr 2007-ci il tarixdə Xətai Rayon Qeydiyyat Şöbəsində bağlanaraq, 1696 nömrəli akt qeydi tərtib olunmuşdur. Birgə nikahdan yetkinlik yaşına çatmayan uşaqları 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlu və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızı doğulmuşlar. Ailə qurduqdan sonra bir müddət ər-arvad kimi münasibətləri normal olsa da sonradan aralarında olan münasibətlər pisləşməyə başlamışdır. Son zamanlar münasibətləri daha da pisləşdiyindən, xasiyyətləri tutmadığından ər-arvad kimi əlaqələri 2024-cü ilin may ayından faktiki olaraq kəsilmişdir. Qeyd olunan səbəblərdən nikah formal xarakter daşıyır, nikahı qoruyub saxlamaq və normal ər-arvad münasibətlərinə qayıtmaq mümkün deyildir. Ona görə də aralarındakı nikahın pozulması barədə qərarı qətidir. Eyni zamanda, cavabdeh



__Qeyd:__ «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

nikahın pozulması və birgə nikah dövründə əldə edilmiş əmlakın bölünməsi tələbi ilə bağlı ilkin mediasiya sessiyasında iştirak etsə də proses davam etdirilə bilməmişdir.

Cavabdeh [redacted] alimentin tutulması barədə ərizə ilə məhkəməyə müraciət edərək 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının saxlanması üçün [redacted] oğlunun qazancından 1/3 hissəsi miqdarında alimentin tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Cavabdehin ərizəsi onunla əsaslandırılmışdır ki, onların nikahı 17 noyabr 2007-ci ildə qeydə alınmışdır. Birgə nikahdan 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlu və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızı doğulmuşdur. Tərəflər tanış olduqdan sonra [redacted] oğlu təkid etdi ki, o, işləməsin, ev işləri ilə məşğul olsun, uşaqları böyütsün. Y.Məmmədova işini atmış və nikak qeydə alındıqdan sonra evdar qadın olmuşdur. Uşaqları məktəblidir, yəni onların saxlanmasına hər il xərclər artır. Onların layiqli normal yaşayışını təmin edə bilmir. O, işləmir. [redacted] oğlu may ayından evini tərk etmişdir. Aralarında münasibətlər gərgindir, praktiki olaraq ünsiyyəti yoxdur. Mövcud vəziyyətini nəzərə alaraq uşaqları saxlamaq üçün Y.Məmmədova hər dəfə ondan pul istəyə bilməz. Bu məsələ ilə bağlı Bakı şəhəri 6 saylı mediasiya təşkilatına müraciət elmişdir. Orada alimentlərin ödənilməsi barədə razılıq əldə edilməmişdir. Məhkəməyə müraciət etmək üçün 29.07.2024-cü ildə MŞB/6-01379 saylı arayış almışdır. Göstərilənlərə əsasən, məhkəmədən xahiş edir ki, 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının saxlanması üçün [redacted] oğlunun qazancından 1/3 hissəsi miqdarında aliment tutulsun. Y.Məmmədova çətin maddi vəziyyətdədir. [redacted] oğlu "Turan Drilling and Engineering Co" şirkətinə işləyir.

**Tərəflərin izahatları:**

Məhkəmə iclasında iddiaçının vəkili iddia tələbini müdafiə edərək onun təmin edilməsini xahiş etmiş və ərizənin məzmununa uyğun izahat vermişdir. O, ərizə təqdim edərək yetkinlik yaşına çatmayan uşaqların saxlanılması barədə alimentin tutulması məsələsi həll edilərkən, həmin aliment məbləğinin 50 faizinin uşaqların adına açılmış bank hesabına köçürülməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Məhkəmə iclasında cavabdeh iddia tələbini qəbul edərək nikahın pozulmasına etiraz etmədiyini bildirmişdir. O, birgə nikahdan doğulmuş uşaqların onun himayəsinə verilməsi və [redacted] oğlunun qazancından 1/3 hissəsi miqdarında alimentin tutulmasını xahiş etmişdir. Cavabdeh verdiyi izahatda alimentin 50 faizinin uşaqların adına açılmış bank hesabına ödənilməsinə dair iddiaçı tərəfin ərizəsinə etiraz etdiyini bildirmişdir.

**İşin faktiki halları:**

İş materiallarında olan sənədlərdən görünür ki, tərəflər 17 noyabr 2007-ci il tarixdə rəsmi nikaha daxil olmuşlar. Birgə nikahdan 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlu və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızı anadan olmuşdur. Uşaqlar hazırda cavabehin yanındadır.

"Elektron məhkəmə" informasiya sistemi vasitəsilə verilmiş sorğuya əsasən müəyyən edilmişdir ki, iddiaçı [redacted] oğlu "[redacted]" MMC-də qrup rəisi vəzifəsində çalışır və 14.470,87 manat əmək haqqı alır.

İş materiallarında olan Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 16(011)-1558/2024 saylı, 13 dekabr 2024-cü il tarixli qərardadından görünür ki, işə mahiyyəti üzrə baxılıb qurtaranadək 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının saxlanılması üçün [redacted] oğlundan hər ay əmək haqqının və digər gəlirlərinin 1/3 hissəsində müvəqqəti alimentin tutularaq [redacted]ya ödənilməsi, alimentin tutulmasının ərizə ilə məhkəməyə müraciət edildiyi 29 oktyabr 2024-cü il tarixdən hesablanması qərara alınmışdır.

**Mülki işə tətbiq edilən hüquq:**

**Azərbaycan Respublikası Konstitusiyası**:

17-ci maddəsinə əsasən, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur.

**Azərbaycan Respublikası Ailə Məcəlləsi:**

20.1-ci maddəsinin tələbinə görə ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, nikah məhkəmə qaydasında pozulur.

20.2-ci maddəsinin tələbinə görə, tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə, işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasını təkid etdikdə, nikah pozulur.

22.2.1-ci və 22.2.2-ci maddələrinə əsasən, məhkəmə boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını, uşaqlar üçün alimentin hansı valideyndən və hansı miqdarda tutulduğunu müəyyən etməlidir.

55.3. Məhkəmə uşağa görə aliment ödəyən valideynin tələbi ilə alimentin 50 faizdən çox olmayan məbləğini yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürmək barədə qərar çıxara bilər.

75.1-ci maddəsinin tələbinə görə, valideynlər uşaqlarını saxlamağa borcludurlar.

75.4-cü maddəsinə əsasən, valideynlər uşaqlarını saxlamadıqda, uşaqların saxlanılması üçün vəsait (aliment) məhkəmə qaydasında tutulur.

76.1.2-ci maddəsinə əsasən, aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən 2 uşağa görə—qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin üçdə bir hissəsi miqdarında aliment tutulur.

78.1-ci maddəsinə əsasən, valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, eləcə də aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qeyri-müntəzəm, dəyişən olarsa, ya da qazancın (gəlirin) hamısını və ya bir hissəsini həmin valideyn natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, habelə alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin və ya marağının əhəmiyyətli dərəcədə pozulduğu başqa hallarda, uşaqların saxlanması üçün vəsait tutulmasının tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda həm sabit pul məbləğində, həm bu Məcəllənin 76-cı maddəsinə uyğun olaraq qazancının (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər.

100.2-ci maddəsinə əsasən, aliment məhkəməyə müraciət edildiyi vaxtdan tutulur.

**“Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 20 dekabr 2024-cü il tarixli 15 nömrəli qərarı:**

8.9-1. Nəzərə alınmalıdır ki, Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan tələb qətnamənin icra qaydasının müəyyən edilməsi barədə müraciətdir. Alimentin tutulması tələbinə dair iddiaya baxılarkən bu barədə edilmiş müraciət MPM-in 220.6-cı maddəsində nəzərdə tutulan qaydada həll edilir. Məhkəmə qətnaməsi ilə tutulan alimentə münasibətdə bu məsələ borclunun ərizəsi əsasında MPM-in 231.1-ci maddəsində nəzərdə tutulan qaydada həll edilir.

8.9-2. Alimentin ödənilməsinin Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan icra qaydasının müəyyən edilməsindən sonra həmin qaydanın dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı əsaslar yaranarsa, belə müraciətlərə də MPM-in 231.1-ci maddəsində nəzərdə tutulmuş icra icraatı qaydasında baxılır. Məhkəmə qətnaməsi ilə tutulan alimentin bir hissəsinin Ailə Məcəlləsinin 55.3-cü maddəsinə uyğun şəkildə ödənilməsi, habelə bu icra qaydasının ləğvi və yaxud dəyişdirilməsi ilə bağlı müraciətlər iddia icraatı qaydasında verildikdə MPM-in 153.2.1-ci maddəsinə əsasən iddia ərizəsinin qəbulundan imtina olunmalı, iş səhvən icraata qəbul edildikdə isə MPM-in 261.0.1-ci maddəsinə əsasən iş üzrə icraata xitam verilməli və hər iki halda iddiaçıya MPM-in 231.1-ci maddəsinə əsasən qətnamənin icra qaydasının müəyyən edilməsi barədə ərizə ilə aidiyyəti məhkəməyə müraciət etmək hüququ izah olunmalıdır. Ailə Məcəlləsinin 55.3-cü maddəsində nəzərdə tutulan qaydada uşağın adına açılmış bank hesabına yığılmış vəsaitə valideynlərdən birinin istəyi ilə sərəncam verilməsi barədə mübahisəyə həmin valideynin tələbi əsasında iddia icraatı qaydasında baxılır.

**Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsi:**

14.2-ci maddəsinə görə, məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

77.1-ci maddəsinə əsasən, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

112-ci maddəsinə əsasən iddianın qiyməti aliment alınması haqqındakı iddialarda-bir il ərzində ödəmənin məcmusu ilə müəyyən edilir.

119.1-ci maddəsinə əsasən məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə mütənasib olaraq işdə iştirak edən şəxslərə aid edilir.

124.1-ci maddəsinə əsasən, işə baxılması ilə əlaqədar məhkəmənin çəkdiyi xərclər və iddiaçının ödəməkdən azad edildiyi dövlət rüsumu, iddia tələblərinin təmin edilmiş hissəsinə mütənasib olaraq dövlət mədaxilinə cavabdehdən alınır.

191.3-cü maddəsinə əsasən cavabdeh tərəfindən iddia etiraf edildikdə və bu, məhkəmə tərəfindən təsdiq edildikdə, məhkəmə iddiaçının irəli sürdüyü tələblərin təmin olunması barədə qətnamə çıxarır.

234.2.1-ci maddəsinə əsasən, şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında qətnamələr dərhal icra olunur.

**“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanunu:**

Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Uşağın

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır.

**İşə baxan məhkəmənin mövqeyi:**

Məhkəmə iclasında müəyyən edildi ki, tərəflər arasındakı ər-arvad münasibətləri kəsilmişdir, onlar birgə yaşayıb, birgə təsərrüfat idarə etmirlər.

Beləliklə, məhkəmə hesab edir ki, tərəflərin nikahın pozulmasına qarşılıqlı razılığı olduğundan, onlar arasındakı nikah Azərbaycan Respublikası Ailə Məcəlləsinin 21.1-ci maddəsinə əsasən onun pozulma səbəbləri məhkəmə qaydasında araşdırılmadan pozulmalıdır.

Məhkəmə tərəflərin birgə nikahından anadan olmuş 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının nikah pozulduqdan sonra valideynlərindən hansının yanında qalması məsələsini müzakirə edərkən, uşaqların hazırda ananın yanında olmasını və tərəflər arasında uşaqların himayəyə verilməsi ilə bağlı mübahisənin olmamasını, iddia tələbini və cavabdehin ərizəsini nəzərə alaraq hesab edir ki, tərəflərin birgə nikahından anadan olmuş 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlu və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızı nikah pozulduqdan sonra anaları cavabdeh [redacted]nın yanında saxlanılmaqla onun himayəsinə verilməlidirlər.

Məhkəmə 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının saxlanılması üçün iddiaçıdan alimentin tutulmasına münasibətdə qeyd edir ki, cavabdeh məhkəməyə müraciət edərək iddiaçının qazancının 1/3 hissəsi miqdarında alimentin onun xeyrinə tutulmasını xahiş etmiş, iddiaçının vəkili də məhkəmə iclasında ərizə təqdim edərək müdafiə etdiyi şəxsin tələb edilən miqdarda aliment ödəməyə razı olduğunu bildirmiş, lakin tutulacaq alimentin 50 faizinin uşaqların adına açılan bank hesablarına köçürülməsini xahiş etmişdir.

Odur ki, məhkəmə [redacted] oğlundan [redacted]nın xeyrinə tutulan alimentin miqdarı məsələsini müzakirə edərkən, iddia tələbinin həcmini, qanunla müəyyən edilmiş uşaqlar üçün nəzərdə tutulmuş yaşayış minimumunu, tərəflərin maddi və ailə vəziyyətini, ölkə üzrə dövlət tərəfindən vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirləri (ölkə üzrə minimum əmək haqqı, müavinətlər, təqaüdlərin artımı nəzərə alınmaqla), uşaqların yaş həddini, sağlamlıq vəziyyətini, diqqətəlayiq olan digər halları əsas tutaraq, tərəflərin birgə nikahından anadan olmuş 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının saxlanılması üçün hər ay iddiaçı [redacted] oğlunun qazancının 1/3 hissəsi qədər alimentin tutulmasını məqsədəmüvafiq hesab edir.

Məhkəmə iddiaçıdan tutulacaq alimentin 50 faizinin uşaqların adına açılan bank hesablarına köçürülməsi hissəsinə münasibətdə qeyd edir ki, iddiaçı hazırkı ərizəni iddia tələbinin həcminin artırılması kimi məhkəməyə təqdim etsə də bu tələb qətnamənin icra qaydasının müəyyən edilməsi ilə bağlıdır. İddiaçının əmək haqqının yüksək olması və ondan 1/3 hissədə alimentin tutulması zamanı cavabdehə ödəniləcək məbləğ nəzərə alınmalıdır. Belə ki, istinad olunan məbləğin bir hissəsinin tərəflərin birgə nikahından doğulmuş uşaqların gələcəyini təmin etmək məqsədilə uşaqların adına açılmış bank hesabına köçürülməsini məhkəmə əsaslı hesab edir. Məhkəmənin gəldiyi qənaətə görə tərəflərin izahatları dinlənildikdən sonra, uşaqların həyat tərzi, məşğuliyyəti, buna sərf olunan məbləğlər nəzərə alınaraq aliment məbləğinin 20 faizi həcmində ödənişin uşaqların adına açılmış bank hesabına köçürülməsi ağlabatandır.

Məhkəmə iddianın aliment tutulması hissəsinə qiymət verərək hesab edir ki, iş materiallarında olan Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 16(011)-1558/2024 saylı, 13 dekabr 2024-cü il tarixli qərardadından görünür ki, işə mahiyyəti üzrə baxılıb qurtaranadək 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının saxlanılması üçün [redacted] oğlundan hər ay əmək haqqının və digər gəlirlərinin 1/3 hissəsində müvəqqəti alimentin tutularaq [redacted]ya ödənilməsi, alimentin tutulmasının ərizə ilə məhkəməyə müraciət edildiyi 29 oktyabr 2024-cü il tarixdən hesablanması qərara alınmışdır.

Göstərilənlərə əsasən məhkəmə hesab edir ki, aliment hazırkı qətnamə qəbul olunduğu tarixdən, yəni **07 yanvar 2025-ci il** tarixdən başlayaraq tutulmalıdır.

Beləliklə, məhkəmə yuxarıda sadalananlara əsasən belə hesab edir ki, iddia tələbi təmin edilməli, iddiaçı [redacted] oğlu ilə cavabdeh [redacted] arasında 17 noyabr 2007-ci il tarixdə Xətai Rayon Qeydiyyat Şöbəsində bağlanaraq 1696 saylı akt qeydi ilə qeydə alınmış nikah pozulmalı, nikah pozulduqdan sonra 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlu və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızı nikah pozulduqdan sonra anaları – cavabdeh [redacted]nın yanında saxlanaraq onun himayəsinə verilməli, 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının yetkinlik yaşına çatanadək saxlanılmaları üçün **07 yanvar 2025-ci il tarixdən** başlayaraq hər ay iddiaçı [redacted] oğlunun qazancının 1/3 hissəsi miqdarında aliment tutularaq cavabdeh [redacted]ya ödənilməli, hər ay tutulmuş alimentin 20 faiz miqdarı yetkinlik yaşına çatmayan 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının adına açılmış bank hesabına köçürülməlidir.

Məhkəmə mülki-prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq məhkəmə xərclərinin bölüşdürülməsi məsələsini də qətnaməsində əks etdirməlidir.

İş materiallarında olan ödəniş qəbzindən görünür ki, iddiaçı [redacted] oğlu tərəfindən 50 manat dövlət rüsumu ödənilmişdir.

Odur ki, məhkəmə dövlət rüsumunun alınması məsələsinə qiymət verərək hesab edir ki, iddiaçı [redacted] oğlunun ödədiyi 50 manat dövlət rüsumu onun özünə aid edilməlidir.

Məhkəmə iş üzrə sübutlara Mülki-Prosessual Məcəllənin 88-ci maddəsinin tələblərinə uyğun olaraq obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət vermiş, iddia ərizəsində qoyulmuş tələblər üzrə nəticəyə gələrkən isə Mülki-Prosessual Məcəllənin 217.4-cü maddəsində təsbit edilmiş bilavasitəlilik prinsipinə uyğun olaraq yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlara əsaslanmışdır.

Şərh olunanlara əsaslanaraq və Azərbaycan Respublikası MPM-nin 216-220-ci maddələrini rəhbər tutaraq məhkəmə

**qət etdi**:

İddia tələbi təmin edilsin.

İddiaçı [redacted] oğlu ilə cavabdeh [redacted] arasında 17 noyabr 2007-ci il tarixdə Xətai Rayon Qeydiyyat Şöbəsində bağlanaraq 1696 saylı akt qeydi ilə qeydə alınmış nikah pozulsun.

07 may 2010-cu il təvəllüdlü [redacted] oğlu və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızı nikah pozulduqdan sonra anaları – cavabdeh [redacted]nın yanında saxlanaraq onun himayəsinə verilsinlər.

İddiaçı [redacted] oğlundan 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının yetkinlik yaşına çatanadək saxlanılmaları üçün 07 yanvar 2025-ci il tarixdən başlayaraq hər ay iddiaçı [redacted] oğlunun qazancının 1/3 (üçdə bir) hissəsi miqdarında aliment tutularaq cavabdeh [redacted]ya ödənilsin.

Hər ay tutulan alimentin 20 (iyirmi) faiz miqdarı yetkinlik yaşına çatmayan 07 may 2010-cu il təvəllüdlü [redacted] oğlunun və 17 aprel 2012-ci il təvəllüdlü [redacted] qızının adına açılmış bank hesabına köçürülsün.

İddiaçı [redacted] oğlu tərəfindən ödənilmiş 50 (əlli) manat dövlət rüsumu onun özünə aid edilsin.

Qətnamənin alimentin tutulmasına dair hissəsi dərhal icra olunsun.

Qətnamədən onun rəsmi qaydada verildiyi gündən 1 (bir) ay müddətində Bakı şəhəri Xətai Rayon Məhkəməsi vasitəsi ilə ("Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə) Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasına apellyasiya şikayəti verilə bilər.

**Sədrlik edən:** **Aygün Həsənova**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Aygün Həsənova
**Məhkəmənin adı:** Bakı Şəhəri Xətai Rayon Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 036